AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Dayanıqlı Maliyyə üzrə Sorğu
# NƏTİCƏLƏRİ




**OKTYABR 2023**

## Mündəricat

Abreviaturalar və akronimlər ........................................ 3

Anlayışlar ........................................ 4

Sorğu haqqında ........................................ 5

1. Giriş ........................................ 6

2. Maliyyə bazarları üzrə təhlil nəticələri ........................................ 7

2. Bank sektoru ........................................ 9

3. Kapital bazarı ........................................ 16

4. Sığorta sektoru ........................................ 19

5. Nəticə ........................................ 22

## Abreviaturalar və akronimlər

| | |
|---|---|
| AMB | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| ESİ | Ekoloji, sosial və idarəetmə |
| DİM | Dayanıqlı İnkişaf Məqsədiləri |
| DB | Dünya Bankı |

## Anlayışlar

- **Dayanıqlı maliyyə** BMT tərəfindən qəbul edilmiş 17 DİM-in təmin edilməsinə yönəlmiş dayanıqlı və balanslaşdırılmış iqtisadi artıma nail olmağa töhfə verən maliyyələşdirmə və bununla əlaqəli institusional və bazar infrastrukturunu ehtiva edir. Başqa sözlə, dayanıqlı maliyyə ESİ amillərinin maliyyə institutları tərəfindən qərarvermə prosesində nəzərə alınmasını ehtiva edir.
- **İqlim riski** dedikdə, ekstremal hava şəraiti və aşağı karbon tutumlu sektorlara keçidi ilə bağlı maliyyə institutlarının üzləşə biləcəyi maliyyə riskləri nəzərdə tutulur. İqlim riskləri özündə geniş mənada ***fiziki riskləri*** və ***keçid risklərini*** əhatə edir:
  - ***Fiziki risklər*** ani baş verən təbiət hadisələrinin tezliyinin və kəskinliyinin artması (daşqın, quraqlıq, meşə yanğınları, torpaq sürüşmələri, tufan və s.), eləcə də iqlim göstəricilərində tədricən baş verən dəyişikliklər (temperaturun artması, yağıntıların artması, dəniz səviyyəsinin qalxması və s.) nəticəsində yaranan maliyyə riskidir.
  - ***Keçid riski*** aşağı karbon iqtisadiyyatına uyğunlaşma prosesində yaranan maliyyə riskidir.
- **Ekoloji risklərə** iqlim dəyişmələrinin yaratdığı mənfi təsirlərin mitiqasiyası və adaptasiyası, ekoloji çirklənmə, təbii resursların və biomüxtəlifliyin qorunması, su çatışmazlığının aradan qaldırılması kimi ətraf mühit məsələlərinin yaratdığı maliyyə riskləri aiddir.
- **Sosial amillərə** bərabərlik, inklüzivlik, məlumatların qorunması və məxfilik, iş standartları, insan resurslarına investisiya, yoxsulluğun aradan qaldırılması, cəmiyyətin sosial rifahının təmin olunması, müştəri məmnuniyyəti və s. kimi məsələlər aiddir.
- **İdarəetmə amillərinə** təşkilati struktur, yuxarı menecmentin mükafatlandırılma siyasəti, audit komitəsinin strukturu, işçi münasibətləri və s. kimi məsələlər daxildir.

## Sorğu haqqında

“Dayanıqlı Maliyyə üzrə Sorğu” (bundan sonra - Sorğu) AMB-nin İdarə Heyəti tərəfindən 15 fevral 2023-cü il tarixində təsdiq edilmiş “Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026”-nın implementasiyası çərçivəsində hazırlanmışdır. Sorğu 2023-cü ilin ilin iyun-iyul aylarında həyata keçirilmişdir.

**Sorğunun məqsədi** maliyyə institutlarının (bankların, sığorta şirkətlərinin və investisiya şirkətlərinin) dayanıqlı maliyyə və ESİ prinsipləri üzrə məlumatlığının ölçülməsi, bu istiqamətdə aparılan, habelə aparılması planlaşdırılan tədbirlərin öyrənilməsi və ilkin indikativ məlumatların toplanması olmuşdur. Sorğu 4 bölmədən və ümumilikdə 33 sualdan ibarət olmuşdur:

Bölmə 1. Dayanıqlı maliyyə və ESİ prinsipləri haqqında ümumi məlumatlılıq (3 sual);

Bölmə 2. Risklərin idarəedilməsi (6 sual);

Bölmə 3. Strategiya və korporativ idarəetmə (5 sual);

Bölmə 4. Dayanıqlı maliyyə və ESİ ilə əlaqəli indikatorlar (19 sual).

Sorğu nəticələri həm maliyyə bazarları üzrə ümumi, həm də hər bir sektor üzrə ayrılıqda təhlil edilmişdir. Hesabatın sonuncu hissəsində sorğu təhlilinin başlıca nəticələri və görüləcək növbəti tədbirlər əhatə edilmişdir.

Sorğu maliyyə bazarlarının dayanıqlı maliyyəyə tranformasiyasının və ESİ prinsiplərinin implementasiyasının qiymətləndirilməsi üçün əhəmiyyətli alət rolunu oynayacaqdır. Qeyd etmək lazımdır ki, sorğu mütəmadi xarakter daşıyacaq və maliyyə bazarlarının ESİ üzrə requlyativ çərçivəsi nəzərə alınmaqla sorğu suallarının strukturunda müvafiq dəyişikliklər aparılacaqdır.

## 1. Giriş

Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının həyata keçirilməsi və iqtisadiyyatın əsas sahələri üzrə müəyyən edilmiş milli prioritetlərin reallaşdırılması üçün ESİ prinsiplərinə söykənən maliyyə axınlarının təmin edilməsi zəruridir. Bu xüsusda, ölkə iqtisadiyyatının dayanıqlı inkişaf çağırışlarına uyğunlaşdırılmasının dəstəklənməsi məqsədilə AMB tərəfindən maliyyə sektorunun dayanıqlı maliyyəyə transformasiyasını özünün strateji prioritetləri sırasına daxil edilmiş və 15 fevral 2023-cü il tarixində "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026" (bundan sonra – Yol xəritəsi) qəbul edilmişdir.

Yol xəritəsinin başlıca məqsədi iqlim və ekoloji, həmçinin sosial və idarəetmə amillərini nəzərə alan dayanıqlı maliyyə sisteminin formalaşmasını və maliyyə sabitliyini təmin etməkdir. Bununla yanaşı, Yol xəritəsi maliyyə sistemində iqlim və ESİ amillərindən qaynaqlanan risklərin idarə edilməsi və fürsətlərin reallaşdırılmasını təmin edəcəkdir. DB-nin ilkin təhlil nəticələrinə əsasən fiziki və keçid riskləri maliyyə bazarlarına, xüsusilə bank sektoruna, təsirsiz ötüşməyəcəkdir. Belə ki, enerji intensivliyi yuxarı iqtisadi sektorlar artan istehsal xərcləri və ekoloji təmiz fəaliyyətə keçid fonunda ödəmə qabiliyyətində çətinliklə üzləşə bilər (keçid riskləri). Kəskin təbiət hadisələri fonunda aktivlərin birbaşa və dolayı zərərə məruz qalması, habelə təchizat zənciri və biznes modelində dəyişikliklər[1] baş verə bilər (fiziki risklər). İlkin qiymətləndirmələrə əsasən bank sektorunun kredit portfelinin 55%-i iqlim dəyişmələri ilə əlaqədar iqtisadi sektorlar[2] təşkil edir və bu maliyyə sisteminin fiziki və keçid risklərinə qarşı vaxtında adekvat tədbirlərin görülməsini zəruri edir.

AMB üz növbəsində Yol xəritəsi ilə müəyyən olunmuş strateji prioritetlər üzrə müvafiq tədbirləri implementasiya edir. Cari sorğu Yol xəritəsinin üçüncü strateji prioriteti (İqlim dəyişmələri və ESİ faktorlarının risklərin idarə edilməsinə inteqrasiyası) çərçivəsində aparılmışdır.

[1] Məsələn, kənd təsərrüfatı fiziki risklərə həssas iqtisadi sektor kimi qiymətləndirilir

[2] İqlim dəyişmələri ilə əlaqədar iqtisadi sektorlar (CPRS – Climate Policy-Relates Sectors) dedikdə yüksək istixana qazı emissiyası olan sahələr (enerji, sənaye prosesləri, kənd təsərrüfatı, tullantılar və s.), yüksək karbon intensivliyi olan sahələr (mədənçilik, tikinti, nəqliyyat), həmçinin keçid risklərinin transmissiya kanallarına həssas olan iqtisadi sektorlar nəzərdə tutulur.

## 2. Maliyyə bazarları üzrə təhlil nəticələri

Sorğuda 24 bank, 11 investisiya şirkəti və 17 sığorta şirkəti olmaqla cəmi 52 maliyyə institutu iştirak etmişdir. Maliyyə institutlarının 95%-i sorğuda iştirak etmişdir. İştirak göstəricisinin yüksək olması bazar iştirakçılarının iqlim dəyişmələri risklərindən və dayanıqlı maliyyə çağırışlarından xəbərdar olduğu, habelə ESİ prinsiplərinin tətbiqində maraqlı olduğunu göstərir.

Sorğu nəticələrinə əsasən, **maliyyə institutlarının 46%-i iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsinin ölkə maliyyə bazarlarında əhəmiyyətini orta,** 23%-i yüksək qiymətləndirmişdir (Qrafik 1). Maliyyə institutlarının 85%-i təmsil etdikləri sektor daxilində digər maliyyə institutlarının dayanıqlı maliyyə istiqamətində fəaliyyətlərindən məlumatlı olmadığını bildirmişdir.

**Qrafik 1. Maliyyə institutları tərəfindən maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsinin əhəmiyyətinin qiymətləndirilməsi**




Maliyyə institutlarının 46%-i (əksəriyyəti banklar olmaqla) iqlim dəyişmələri və ESİ risklərinin fəaliyyətlərinə (biznes strategiyasının realizasiyasına, biznes modelinə, maliyyə planlamasına, risk iştahası göstəricilərinə və s) təsir göstərə biləcəyini qeyd etsə də, onların 44%-i bu istiqamətdə təhlil aparılmadığını bildirmişdir. Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin qısa müddətli dövrə aşağı olacağını (73%), lakin **orta və uzunmüddətli dövrə təsirlərin orta və yüksək riskli zonaya tədrici miqrasiyasını (~60%)** gözləyir. (Qrafik 2)

**<u>Qrafik 2.</u> Maliyyə institutlarının iqlim dəyişmələri və ESİ risklərinin təsirləri üzrə gözləntiləri (aşağı, orta, yüksək)**




Qeyd 1: Qrafikdəki dairələrin diametri vizual olaraq maliyyə institutlarının sayını əks etdirir.
Qeyd 2: Şaquli ox üzrə maliyyə institutlarının sayını göstərilir.

Dayanıqlı maliyyə üzrə risklərin idarəedilməsi, ESİ prinsiplərinin biznes strategiyasına inteqrasiya edilməsi və biznes fəaliyyətində nəzərə alınması üzrə hansı maneələrin mövcud olması ilə bağlı maliyyə institutları **kifayət qədər məlumatlılığın olmamasını** (73%) başlıca səbəb kimi göstərmişdir. Digər əsas səbəblər kimi tənzimləmə çərçivəsinin mövcud olmaması (48%), kadr potensialının adekvat səviyyədə olmaması (52%) və nəzarət orqanının tələbinin olmaması (23%) qeyd edilmişdir. (<u>Qrafik 3</u>)

**Maliyyə institutlarının dayanıqlı maliyyəyə transformasiyası və ESİ prinsiplərinin tətbiqi üzrə başlıca gözləntiləri və təklifləri** maarifləndirmə və məlumatlandırma tədbirlərinin keçirilməsi, hüquqi-normativ və tənzimləmə çərçivəsinin hazırlanması, hesabatlılığın formalaşdırılması və dayanıqlı maliyyə alətləri üzrə güzəştlərin tətbiqi istiqamətində olmuşdur.

Maliyyə institutları tərəfindən **ətraf mühitin qorunmasını dəstəkləyən layihələr, biznes fəaliyyətləri və sosial əhəmiyyətli** bir sıra layihələr həyata keçirilmişdir. Bunlara nümunə olaraq, ağacəkmə kampaniyalarında iştirak, günəş panellərinin quraşdırılmasının maliyyələşdirilməsi, hibrid avtomobillərin sığortalanması, tullantıların təkrar emalı, qadın sahibkarların dəstəklənməsi və s. göstərilmişdir.

**<u>Qrafik 3</u>. Dayanıqlı maliyyənin tətbiqi üzrə maliyyə insititutları tərəfindən bildirilən əsas maneələr**




## 3. Bank sektoru

Bankların 54%-i ölkənin maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ prinsiplərinin idarəedilməsini **orta əhəmiyyətli** hesab etmişdir (25%-i yüksək əhəmiyyətli, 21%-i aşağı əhəmiyyətli) (Qrafik 4)

Bankların 50%-i bankdaxili sənədlərdə **dayanıqlı maliyyə/ yaşıl maliyyə/ ESİ və əlaqəli anlayışları** müəyyən etdiklərini bildirmişlər. Bu anlayışların müəyyən edildiyi sənədlər eyni olmamaqla bərabər müxtəlif idarəetmə səviyyələrində təsdiqlənən sənədlər olmuşdur. Məsələn, bu anlayışları bəzi banklar strategiya və siyasət sənədlərində, digərləri etik davranış sənədlərində, bir sıra banklar isə ətraf mühit və sosial amillər üzrə spesifik qayda xarakterli sənədlərdə müəyyən etmişdir.

Bankların 75%-i digər banklar tərəfindən dayanıqlı maliyyə sahəsində görülən işlərdən məlumatlı olmadığını bildirmişdir. Bankların dayanıqlı maliyyə üzrə müxtəlif tədbirlər həyata keçirməsinə baxmayaraq, bu göstəricinin yüksək olması şəffaflığın artırılması istiqamətində hesabatlığın və ictimaiyyətə açıqlanan məlumatların təkmilləşdirilməsinin zəruri olmasını göstərir.

**Qrafik 4. Maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsinin əhəmiyyəti**




Qeyd 1: Qrafikdəki rəqəmlər bankların sayını göstərir.

Bankların **67%-i iqlim dəyişmələri və ESİ risklərini biznes strategiyasının realizasiyasına, biznes modelinə, maliyyə planlamasına və risk iştahası göstəricilərinə təsir göstərəcəyini** qeyd etmişdir. Bununla bağlı, banklar kənd təsərrüfatı kredit portfeli və təchizat zəncirinə təsirləri, dayanıqlı maliyyə sahəsində müvafiq bilik və bacarıqlara malik kadrların çatışmazlığı, ekoloji risklər nəticəsində işçilərin əmək şəraitinin pisləşməsini, bankın biznes fəaliyyətində təbii fəlakətlər nəticəsində baş verə biləcək dayanmalar fonunda əməliyyat risklərini, fiziki risklər nəticəsində kredit verilən kommersiya müştərilərinin dövriyyəsinin və kreditlər üzrə alınan girovun dəyərinin azalması kimi təsir kanallarını qeyd etmişdir.

Təhlil nəticələri göstərmişdir ki, banklar iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin qısa və orta-müddətli dövrə aşağı olacağını gözləyir (~60%). Lakin uzun-müddətli dövrdə dayanıqlı maliyyə risklərinin “aşağı”dan “orta”ya (46%) keçidi görünür (Qrafik 5). Belə ki, banklar ölkədə uzunmüddətli dövrdə həm iqlim risklərinin təsirlərinin ölkə iqtisadiyyatında, xüsusilə də kənd təsərrüfatında daha çox hiss olunacağını, biznes modelin əhəmiyyətli dəyişikliklərə məruz qalacağını, həmçinin nəzarət orqanı tərəfindən tələblərin artacağını gözləyir.

<u>Qrafik 5</u>. **Bankların iqlim dəyişmələri və ESİ risklərinin qısa, orta və uzun müddətli dövrlərə təsiri üzrə gözləntiləri**




Qeyd 1: Qrafikdəki rəqəmlər bankların sayını göstərir.

Bankların 46%-i tərəfindən **iqlim dəyişmələri və ESİ risklərinin banka təsiri üzrə risk qiymətləndirməsinin** aparılmadığı göstərilmişdir. Risk qiymətləndirməsi aparan bəzi banklar tərəfindən qiymətli kağızlarla əməliyyatlar və kreditlərin verilməsi zamanı ESİ qiymətləndirilməsinin aparıldığı, illik əsasda bankın kredit portfelinin ekoloji və sosial faktorlara həssas olan hissəsinin müəyyən edildiyi, ekspert mülahizəsi əsasında ESİ prinsiplərinin stress testdə nəzərə alındığı və s. qeyd edilmişdir.

Bankların **54%-i iqlim dəyişmələri və ESİ risklərinin, o cümlədən fürsətlərinin qiymətləndirilməsinin bankın son 5 il üzrə fəaliyyətində** aşağıdakı müəyyən istiqamətlər üzrə nəzərə alındığını bildirmişdir:

- *ekoloji və sosial riskləri yüksək olan bizneslərin kreditləşməsinin məhdudlaşdırılması;*
- *gender bərabərliyi istiqamətində tədbirlərin görülməsi;*
- *əməkdaşların təhsil imkanlarının genişləndirilməsi;*
- *aztəminatlı ailələr, eləcə də həssas əhali qrupundan olan vətəndaşların kiçik ailə bizneslərinin dəstəklənməsi;*
- *universitet tələbələri üçün təcrübə proqramlarının təşkili;*
- *iqtisadi sektorlar və iqtisadi rayonlar üzrə diversifikasiya aparılaraq limitlərin tətbiq edilməsi;*
- *ətraf mühitin idarə edilməsi, istixana qazları ilə bağlı İSO sertifikasiyası;*

- *tullantıların diversifikasiyasına nəzarət və kağızdan istifadənin azaldılması;*
- *ağacəkmə aksiyalarında iştirak.*

Sorğu nəticələri göstərmişdir ki, banklar tərəfindən dayanıqlı maliyyə və ESİ prinsiplərinin nəzərə alınması istiqamətində görülən başlıca işlər Müşahidə Şurası tərəfindən ümumi baxışın müəyyən edilməsi, kadr potensialının formalaşdırılmasına başlanılması və ESİ prinsiplərinin məhsul və xidmətlərə inteqrasiya olunmasıdır (Qrafik 6). Lakin, dayanıqlı maliyyə və ESİ prinsiplərinin biznes və risklərin idarəedilməsi üzrə siyasət və strategiya sənədlərinə inteqrasiya edilməsi 5 bank tərəfindən həyata keçirilmişdir. Bəzi banklar tərəfindən isə ətraf mühit və sosial faktorlarla bağlı ayrıca funksional strategiya hazırlanması nəzərdə tutulmuşdur.

**Qrafik 6. Dayanıqlı maliyyə üzrə banklar tərəfindən görülən tədbirlər**




Banklar dayanıqlı maliyyənin tətbiqi üzrə **kifayət qədər məlumatlılığın olmamasını, kadr potensialının çatışmazlığını və tənzimləmə və nəzarət çərçivəsinin mövcud olmamasını başlıca maneələr** kimi qeyd etmişdir. (Qrafik 7) Dayanıqlı maliyyə fəaliyyət növlərinin gəlirli olmamasını hesab edən bank olmamışdır. Bu isə gələcəkdə bankların yaşıl investisiya layihələrinin cəlbinə yönəldilməsi üzrə imkanların olduğunu göstərir. Digər maneələr kimi dayanıqlı maliyyəni dəstəkləyən fondların az olması, sahibkarlıq subyektlərinin fəaliyyətinin ekoloji və sosial təsirlərinin qiymətləndirilməsinin mümkün olmaması, habelə ekoloji təmiz iqtisadi fəaliyyət növlərinin kifayət qədər olmaması göstərilmişdir.

**<u>Qrafik 7.</u> Dayanıqlı maliyyənin tətbiqi üzrə maneələr**




Banklar hazırkı biznes modelinin və biznes strategiyasının ətraf mühit və cəmiyyətə müsbət və mənfi təsirləri üzrə aşağıdakıları qeyd etmişdir:

- *Müsbət təsirlər* – alternativ enerji mənbələrilə işləyən elektrik stansiyalarının tikintisini maliyyələşdirmək, gənclərin təhsilinə töhfə, mikro sahibkarlara dəstək, məşğulluğun artmasına dəstək, mütəmadi ağac əkmə aksiyalarıla ətraf mühitə təsir;
- *Mənfi təsirlər* - maliyyələşdirilən iqtisadi fəaliyyət növləri nəticəsində karbon emissiyasında artım, ətraf mühitin çirklənməsi, su sərfiyyatı, kağız istifadəsi.

Bankların dayanıqlı maliyyə və ESİ prinsiplərinin maliyyə bazarlarında tətbiqi üzrə infrastruktur, təşviq mexanizmləri və s. istiqamətlərdə təklifləri və nəzarət orqanından əsas gözləntiləri requlyativ güzəştlər, maliyyələşmə dəstəyi və təlimlər vasitəsilə məlumatlılığı və bilik-bacarıqların artırılması olmuşdur.

Bankların 67%-i **ətraf mühitin qorunmasını birbaşa və dolayı dəstəkləyən layihələr və biznes fəaliyyətlərinin** olduğunu bildirmişdir. Bununla bağlı aşağıdakı layihələr qeyd edilmişdir:

- *İşğaldan azad olunmuş torpaqlarda günəş panellərinin qurulması;*
- *ekoloji kartların buraxılması;*
- *ESİ prinsiplərinin kredit qərarverməsində nəzərə alınması;*
- *hibrid avtomobillərin əldə edilməsi üzrə kreditləşmə və s.*

Bankların 88%-i **öz fəaliyyətində ətraf mühitin qorunması ilə bağlı tədbirlər** həyata keçirdiyini bildirmişdir. Banklar öz fəaliyyətlərində ətraf mühitin qorunması ilə bağlı kağız həcminin

azaldılması, elektrik enerjisinə qənaət, ağacəkmə aksiyalarında iştirak, dənizkənarı tullantıların təmizlənməsi, elektrik batareyaların düzgün utizilizasiya edilməsi üçün toplanma məntəqəsinin yaradılması, plastik istifadəsinin azaldılması və tullantıların təkrar emalı istiqamətində işlər görülmüşdür.

Bankların 13%-i **beynəlxalq maliyyə institutlarının maddi və/ və ya texniki dəstəyi** ilə ətraf mühitin qorunmasını dəstəkləyən layihələr həyata keçirildiyini bildirmişdir. Bu layihələrə ağac əkilməsini dəstəkləyən bank kartlarının buraxılması, ESİ üzrə qaydaların hazırlanması, iqtisadi fəaliyyət növləri üzrə istisna siyahısı, ESİ hesabatının yenilənməsi və s. nümunə göstərmək olar.

Bununla yanaşı, banklardan 2021 və 2022-ci illər üzrə **enerji istehlakı, su sərfiyyatı və kağız istifadəsi** üzrə məlumatlar toplanmışdır (məlumatları 17 bank təqdim edə bilmişdir). 2021-ci il ilə müqayisədə 2022-ci ildə 3 bank tərəfindən enerji istehlakı, 5 bank tərəfindən su sərfiyyatı və 8 bank tərəfindən kağız istifadəsi azaldılmışdır. Lakin bank sektoru üzrə ümumilikdə baxdıqda enerji istehlakı, su istifadəsi və kağız istifadəsi artmışdır.

**Sosial əhəmiyyətli layihələrin və/ və ya biznes fəaliyyətlərin** bankların 79%-i tərəfindən həyata keçirildiyi bildirimişdir. Sosial layihə kimi aşağıdakılar həyata keçirilmişdir:

- *şəhid ailələrin övladlarına dəstək;*
- *qadın sahibkarlara dəstək;*
- *universitet tələbələri üçün təcrübə proqramının təşkili;*
- *özünəməşğulluq proqramında iştirak;*
- *əməkdaşların tibbi sığorta ilə təmin olunması;*
- *kiçik sahibkarlıqla məşgul olan şəxslərin avadanlıqlarla təmin edilməsi;*
- *aztəminatlı ailələrə ərzaq yardımı və s.*

**Bankların sosial göstəriciləri** üzrə ümumi işçi və müxtəlif idarəetmə səviyyələrində xanım əməkdaşların, fiziki qüsurlu əməkdaşların sayı, yaş qrupları üzrə əməkdaşların paylanması, işçi dövriyyəsi, təlim təhsil büdcəsi, analıq məzuniyyəti götürmüş əməkdaşların sayı, iş yeri təhlükəsizliyinin və əməkdaşların sağlamlığının qorunması üzrə məlumatlar təqdim edilmişdir. Ümumi olaraq, qeyd etmək lazımdır ki, xanım əməkdaşların payı ortalama 38%, yuxarı və orta idarəetmə səviyyələrində isə müvafiq olaraq ortalama 11% və 17% olmuşdur (Qrafik 8). Bank sektorunda fiziki qüsurlu əməkdaşların payı ortalama 1.5% təşkil etmişdir. Yaş qrupları üzrə paylanmaya baxdıqda 71% əməkdaşların 21-40 yaş aralığında olduğu görünür. Digər sosial göstəricilər üzrə növbəti sorğulardan sonra məlumat bazası formalaşdıqca müqayisəli təhlil aparılacaqdır.

**<u>Qrafik 8.</u> Banklarda müxtəlif idarəetmə səviyyələrində xanım əməkdaşların payı**




**Bankların idarəetmə göstəriciləri** üzrə mükafatlandırma, anti-korrupsiya siyasətləri və davranış məcəlləsi kimi sənədlərin mövcudluğu, habelə yenilənməsi, iqlim dəyişmələri və ESİ risklərinin bankın fəaliyyətinə təsirinin Müşahidə Şurası və İdarə Heyəti iclaslarında müzakirə olunması və ESİ prinsiplərinin bankın fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmə yaxud əməkdaşların müəyyən edilməsi üzrə məlumatlar toplanmışdır. Son 3 il ərzində 8 bankın Müşahidə şurasının və 9 bankın İdarə heyətinin iclaslarında iqlim dəyişmələri və ESİ risklərinin bankın fəaliyyətinə təsiri üzrə müzakirələr aparıldığı bildirilmişdir. Müzakirələr başlıca olaraq ağacəkmə kampaniyalarında iştirak, kağız istifadəsi və sosial göstəricilər ilə bağlı olmuş və yalnız bir neçə bankda ESİ prinsiplərinin bankın biznes modelinə inteqrasiyası və yaşıl kreditlər üzrə müzakirələr aparılmışdır.

7 bankda ESİ prinsiplərinin bankın fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmə yaxud əməkdaşın müəyyən olunduğu bildirilmişdir. Bununla bağlı, banklar tərəfindən başlıca olaraq 2 yanaşma istifadə edilmişdir: (1) aidiyyəti departamentlər daxilində ESİ üzrə koordinatorların müəyyən edilməsi və (2) baş direktor səviyyəsində müəyyən edilməsi. Yalnız bir bankda bu məsələlərlə bağlı spesifik komanda və Davamlılıq Komitəsi formalaşdırılmışdır.

## 4. Kapital bazarı

İnvestisiya şirkətlərinin 55%-i **ölkə maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ prinsiplərinin idarəedilməsini əsas etibarilə orta əhəmiyyətli** hesab etmişdir. İnvestisiya şirkətlərinin 91%-i daxili sənədlərdə dayanıqlı maliyyə/ yaşıl maliyyə/ ESİ və əlaqəli anlayışları müəyyən etmədiklərini bildirmişdir. İnvestisiya şirkətləri digər investisiya şirkətləri tərəfindən dayanıqlı maliyyə sahəsində görülən işlərdən məlumatlı olmadığını bildirmişdir. Bu isə şəffaflığın artırılması istiqamətində hesabatlılığın və ictimaiyyətə açıqlanan məlumatların artırılmasının zəruri olduğunu göstərir.

İnvestisiya şirkətlərinin 64%-i iqlim dəyişmələri və ESİ risklərinin biznes strategiyasının realizasiyasına, biznes modelinə, maliyyə planlamasına, risk iştahası göstəricilərinə təsir göstərməsilə bağlı təhlil aparılmadığını qeyd etmişdir. Bu istiqamətdə təhlil aparmış investisiya şirkətləri iqlim dəyişmələrinin təsiri və investorların alıcılıq qabiliyyətinin aşağı düşməsi nəticəsində itkilərin baş verəcəyini gözlədiyini bildirmişdir.

Təhlil nəticələri göstərmişdir ki, investisiya şirkətlərinin ~60%-i **iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin qısa və orta-müddətli dövrə aşağı olacağını** gözləyir (Qrafik 9). Uzun-müddətli dövrə investisiya şirkətləri dayanıqlı maliyyə risklərinin "aşağı" zonadan "orta" zonaya keçid edəcəyini bildirmişdir.

**Qrafik 9 . İnvestisiya şirkətlərinin iqlim dəyişmələri və ESİ risklərinin qısa, orta və uzun müddətli dövrlərə təsiri üzrə gözləntiləri**




İqlim dəyişmələri və ESİ risklərinin biznes fəaliyyətinə təsiri üzrə investisiya şirkətlərinin 73%-i risk qiymətləndirməsi aparılmadığını bildirmişdir. **Risk qiymətləndirməsi** aparan iki investisiya şirkəti bu qiymətləndirməni aktivlər üzrə araşdırma aparılması və yeni gəlir imkanları

istiqamətində aparıldığını bildirmişdir. Bununla yanaşı, investisiya şirkətlərinin hamısı iqlim dəyişmələri və ESİ risklərinin, o cümlədən fürsətlərinin qiymətləndirilməsinin bankın son 5 il üzrə fəaliyyətində nəzərə alınmadığını qeyd etmişdir.

Sorğu nəticələri göstərmişdir ki, investisiya şirkətlərinin 82%-i dayanıqlı maliyyə və ESİ prinsiplərinin nəzərə alınması istiqamətində tədbirlər həyata keçirməmişdir. Yalnız bir investisiya şirkətinin Müşahidə Şurası tərəfindən ümumi baxışın müəyyən edilməsi və kadr potensialının formalaşdırılması ilə bağlı işlər görüldüyü bildirilmişdir.

İnvestisiya şirkətləri **kifayət qədər məlumatlığın, kadr potensialının və tənzimləmə və nəzarət çərçivəsinin mövcud olmamasını dayanıqlı maliyyənin implementasiyası üzrə başlıca maneələr** kimi göstərmişdir (Qrafik 10). Dayanıqlı maliyyə üzrə fəaliyyət növlərinin gəlirli olmamasını hesab edən yalnız bir investisiya şirkəti olmuşdur. Digər maneələr kimi dayanıqlı maliyyə üzrə fəaliyyət növlərini dəstəkləyən fondların az olması, sahibkarlıq subyektlərinin fəaliyyətinin ekoloji və sosial təsirlərinin qiymətləndirilməsinin həyata keçirilməməsi və ekoloji təmiz iqtisadi fəaliyyət növlərinin kifayət qədər olmaması göstərilmişdir.

**Qrafik 10 . Dayanıqlı maliyyə və ESİ prinsiplərinin adaptasiyası üzrə maneələr**




İnvestisiya şirkətləri hazırki biznes modelinin və biznes strategiyasının ətraf mühit və cəmiyyətə müsbət və mənfi təsirləri üzrə aşağıdakıları qeyd etmişdir.

- Müsbət: rəhbər vəzifələrdə xanımların təmsil edilməsi; əməkdaşların təhsilinin dəstəklənməsi; təcrübə proqramlarının həyata keçirilməsi; mütəmadi ağac əkmə aksiyalarında iştirak edilməsi.
- Mənfi: ətraf mühitin çirklənməsi; su sərfiyyatı; kağız istifadəsi.

İnvestisiya şirkətləri dayanıqlı maliyyə və ESİ prinsiplərinin maliyyə bazarlarında tətbiqi üzrə **nəzarət orqanından əsas gözləntiləri maliyyələşmə dəstəyi, tənzimlənmə çərçivəsinin yaradılması və məlumatlılığın artırılması** olmuşdur.

İnvestisiya şirkətlərinin 18%-i **ətraf mühitin qorunmasını birbaşa və dolayı dəstəkləyən layihələr və biznes fəaliyyətlərinin** olduğunu bildirmişdir. Bununla bağlı ağacəkmə aksiyalarında iştirak, yaşıl istiqraz buraxılışı ilə bağlı danışıqların aparılması və s. qeyd edilmişdir. İnvestisiya şirkətlərinin 46%-i öz fəaliyyətində ətraf mühitin qorunması ilə bağlı tədbirlər həyata keçirdiyini bildirmişdir. İnvestisiya şirkətləri öz fəaliyyətlərində ətraf mühitin qorunması ilə bağlı kağız həcminin azaldılması və işlənmiş kağızların təkrar emala göndərilməsini qeyd etmişdir. İnvestisiya şirkətləri beynəlxalq maliyyə institutlarının maddi və ya texniki dəstəyi ilə ətraf mühitin qorunmasını dəstəkləyən layihlələr həyata keçirilmədiyini bildirmişdir.

**Sosial əhəmiyyətli layihələrin və ya biznes fəaliyyətlərinin** investisiya şirkətlərinin 27%-i tərəfindən həyata keçirildiyi bildirilmişdir. Sosial layihələr kimi investor xanımlar klubunun yaradılması və aztəminatlı ailələrə yardım kampaniyasında iştirak üzrə aşağıdakılar təqdim edilmişdir.

İnvestisiya şirkətlərinin **sosial göstəriciləri** üzrə ümumi işçilərin, müxtəlif idarəetmə səviyyələrində xanım əməkdaşların və fiziki qüsurlu əməkdaşların sayı, yaş qrupları üzrə əməkdaşların paylanması, işçi dövriyyəsi, təlim-təhsil büdcəsi, analıq məzuniyyəti götürmüş əməkdaşların sayı, iş yeri təhlükəsizliyinin və əməkdaşların sağlamlığının qorunması üzrə məlumatlar toplanmışdır. Xanım əməkdaşların payı ortalama 35%, yuxarı və orta idarəetmə səviyyələrində isə ortalama olaraq 7% və 13% olmuşdur. Digər sosial göstəricilər üzrə növbəti sorğular həyata keçirildikcə və məlumat bazası formalaşdıqca müqayisəli təhlil aparılaraq təqdim ediləcəkdir.

**İdarəetmə göstəriciləri** üzrə mükafatlandırma, anti-korrupsiya siyasətləri və davranış məcəlləsi kimi sənədlərin mövcudluğu və yenilənməsi, iqlim dəyişmələri və ESİ risklərinin investisiya şirkətinin fəaliyyətinə təsirinin Müşhaidə Şurası və İdarə Heyəti iclaslarında müzakirə olunması və ESİ prinsiplərinin bankın fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmə yaxud əməkdaşların müəyyən edilməsi üzrə məlumatlar toplanmışdır. Son 3 il ərzində investisiya şirkətlərində Müşahidə Şurası və İdarə Heyəti iclaslarında iqlim dəyişmələri və ESİ risklərinin investisiya şirkətinin fəaliyyətinə təsiri üzrə müzakirələr aparılmamışdır. Yalnız bir investisiya şirkətində ESİ prinsiplərinin biznes fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmənin Hüquq və komplayens departamenti müəyyən edildiyi bildirilmişdir.

## 5. Sığorta sektoru

Sığorta şirkətlərinin 60%-i ölkə **maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ prinsiplərinin idarəedilməsini orta və yüksək əhəmiyyətli** hesab etmiş və 30%-i bununla bağlı məlumatlı olmadığını bildirmişdir. Sığorta şirkətlərinin 82%-i daxili sənədlərdə dayanıqlı maliyyə/ yaşıl maliyyə/ ESİ və əlaqəli anlayışları müəyyən etmədiklərini bildirmişdir. Anlayışların iki sığorta şirkəti dayanıqlı inkişaf və ESİ transformasiyasına dair strategiya sənədində müəyyən edildiyi qeyd edilmişdir.

Sığorta şirkətləri sektordakı digər şirkətlər tərəfindən dayanıqlı maliyyə sahəsində görülən işlərdən əsas etibarilə məlumatlı olmadığını bildirmişdir. Bu isə həm bank sektoru, həm də kapital bazarında olduğu kimi şəffaflığın artırılması istiqamətində hesabatlılğın və ictimaiyyətə açıqlanan məlumatların təkmilləşdirilməsinin zəruri olmasını göstərmişdir.

Sığorta şirkətlərinin 60%-i **iqlim dəyişmələri və ESİ risklərinin biznes strategiyasının realizasiyasına, biznes modelinə, maliyyə planlamasına, risk iştahası indikatorlarına təsir** göstərməsilə bağlı təhlil aparılmadığını qeyd etmişdir. Ümumilikdə, sığorta şirkətləri əmlak və aqrar sığorta üzrə yaranacaq maliyyə itkilərini başlıca risklər hesab edir. Sığorta şirkətləri dayanıqlı maliyyə ilə bağlı son beş il ərzində elektriklə işləyən nəqliyyat vasitələrinin sığortalanması və dayanıqlı inkişaf üzrə hesabatın hazırlanması üzrə işlərin görülməsini qeyd etmişdir.

Təhlil nəticələri göstərmişdir ki, **sığorta şirkətlərinin ~45%-i iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin qısa, orta və uzun-müddətli dövrə əsasən orta olacağını gözləyir** (Qrafik 11). Uzunmüddətli dövrə isə sığorta şirkətlərinin gözləntilərinin yüksək riskli olmasına doğru miqrasiyası görünür. Bu miqrasiyaya səbəb kimi sığorta şirkətləri tərəfindən quraqlıq, meşə yanğınları, katastrofik hadisələr və ətraf mühitin çirklənməsi ilə insan sağlamlığına mənfi təsiri nəticəsində sığorta hadisələrinin və zərərliliyin artacağı qeyd edilmişdir. Bir sıra sığorta şirkətləri isə ESİ risklərinə dair statistik məlumat olmadığından qiymətləndirmə aparılmasının mümkün olmadığını qeyd etmişdir.

İqlim dəyişmələri və ESİ risklərinin sığorta şirkətlərinə təsiri üzrə **sığorta şirkətlərinin 88% risk qiymətləndirməsi aparılmadığını** bildirmişdir. Risk qiymətləndirməsi aparan iki sığorta şirkəti bu qiymətləndirməni spesifik ESİ-yə aid olmadığını və PEST təhlil[3] və risklərin idarəedilməsi çərçivəsində nəzərə alınmaqla aparıldığını bildirmişdir.

[3] Siyasi, iqtisadi, sosial və texnoloji faktorlar nəzərə alınmaqla aparılan təhlil aləti

**Qrafik 11. Sığorta şirkətlərinin iqlim dəyişmələri və ESİ risklərinin qısa, orta və uzun müddətli dövrlərə təsiri üzrə gözləntiləri**




Sorğu nəticələri göstərmişdir ki, **sığorta şirkətlərinin ~60%-i dayanıqlı maliyyə və ESİ prinsiplərinin nəzərə alınması istiqamətində tədbirlər həyata keçirməmişdir** (Qrafik 12). Bu istiqamətdə tədbirlər həyata keçirən bir neçə sığorta şirkəti isə biznes və risklərin idarə edilməsi üzrə siyasət və strategiya sənədlərinə daxil edilməsi, habelə təqdim edilən məhsul və xidmətlərə ESİ prinsiplərinin inteqrasiya edilməsi, Müşahidə Şurası tərəfindən strateji baxışın müəyyən edilməsi və kadr potensialının formalaşdırılması işlərinə başladığnı bildirmişdir.

**Qrafik 12. Dayanıqlı maliyyə üzrə sığorta şirkətləri tərəfindən görülən tədbirlər**




Sığorta şirkətləri əsas etibarilə **kifayət qədər məlumatlılığın və bununla yanaşı kadr potensialı, tənzimləmə və nəzarət çərçivəsinin mövcud olmamasını** dayanıqlı maliyyənin implementasiyası üzrə başlıca maneələr kimi göstərmişdir (Qrafik 13). Dayanıqlı maliyyə fəaliyyət növlərinin gəlirli olmamasını hesab edən sığorta şirkəti olmamışdır. Digər maneələr kimi ESİ prinsiplərinin təşviq olunmaması qeyd edilmişdir.

Sığorta şirkətləri hazırkı biznes modelinin və biznes strategiyasının ətraf mühit və cəmiyyətə **mənfi təsirlərinin** olmadığını bildirmişdir. **Müsbət təsirlər** kimi kənd təsərrüfatı sahəsində çalışan fermerlərin əmlak maraqlarının qorunmasının təmin edilməsi, avtomatlaşdırmanın sürətləndirilərək resurs və enerji istifadəsinin azaldılması, ağacəkmə və digər sosial layihələrdə iştirak etməklə ətraf mühitin qorunmasına və sosial faktorlara töhfə verildiyi qeyd edilmişdir. Dayanıqlı maliyyə və ESİ prinsiplərinin maliyyə bazarlarında tətbiqi üzrə sığorta şirkətlərinin təklifləri bankların və investisiya şirkətlərinin təklifləri ilə üst-üstə düşmüşdür.

**Qrafik 13. Dayanıqlı maliyyə və ESİ prinsiplərinin adaptasiyası üzrə maneələr**




Sığorta şirkətlərinin **41%-i ətraf mühitin qorunmasını birbaşa və dolayı dəstəkləyən layihələr və biznes fəaliyyətlərinin olduğunu** bildirmişdir. Bununla bağlı, bir çox sığorta şirkətləri tərəfindən ağacəkmə kampaniyasında iştirak qeyd edilmişdir. Sığorta şirkətlərinin 46%-i öz fəaliyyətində də ətraf mühitin qorunması ilə bağlı tədbirlər həyata keçirdiyini bildirmişdir. Sığorta şirkətləri öz fəaliyyətlərində su sərfiyyatının və elektrik istehlakının optimallaşdırılması, kağız istifadəsinin azaldılması və təkrar emala göndərilməsi, plastikdən imtina edilməsi, ağacəkmə aksiyalarında iştirak edilməsi və s. istiqamətində işlər görmüşdür.

Bununla yanaşı, sığorta şirkətlərindən 2021 və 2022-ci illər üzrə enerji istehlakı, su istifadəsi və kağız istifadəsi üzrə məlumatlar da toplanmışdır. Ümumilikdə, sığorta sektoru üzrə enerji istehlakı, su sərfiyyatı və kağız istifadəsi artmışdır. Sığorta şirkətləri beynəlxalq maliyyə institutlarının maddi və/ və ya texniki dəstəyi ilə ətraf mühitin qorunmasını dəstəkləyən layihlələr həyata keçirilmədiyini bildirmişdir.

**Sosial əhəmiyyətli layihələrin və/ və ya biznes fəaliyyətləri sığorta şirkətlərinin 41%-i** tərəfindən həyata keçirilmişdir. Bu istiqamətdə işçilər üçün sığorta məhsullarına endirimlərin tətbiq edilməsi, qadına sahibkarlar üçün sığorta məhsulları üzrə təlim keçirilməsi, aztəminatlı ailələrin

və şəhid övladlarına məktəb ləvazimatlarının hədiyyə edilməsi, şəhid və müharibə veteranlarının həyat yoldaşlarına sahibkarlıq istiqamətdə bilik və iş qazandırılması tədbirlərinin həyata keçirildiyi bildirilmişdir.

Sığorta şirkətlərinin **sosial göstəriciləri** üzrə ümumi işçi, müxtəlif idarəetmə səviyyələrində xanım əməkdaşların və fiziki qüsurlu əməkdaşların sayı, yaş qrupları üzrə əməkdaşların paylanması, işçi dövriyyəsi, təlim təhsil büdcəsi, analıq məzuniyyəti götürmüş əməkdaşların sayı, iş yeri təhlükəsizliyinin və əməkdaşların sağlamlığının qorunması üzrə məlumatlar təqdim edilmişdir. Xanım əməkdaşların payı ortalama 40%, yuxarı və orta idarəetmə səviyyələrində isə ortalama olaraq 23% təşkil etmişdir. Digər sosial göstəricilər üzrə növbəti sorğular həyata keçirildikcə və məlumat bazası formalaşdıqca müqayisəli təhlil aparılaraq təqdim ediləcəkdir.

**İdarəetmə göstəriciləri** üzrə mükafatlandırma, anti-korrupsiya siyasətləri, habelə davranış məcəlləsi kimi sənədlərin mövcudluğu və yenilənməsi, iqlim dəyişmələri və ESİ risklərinin sığorta şirkətinin fəaliyyətinə təsirinin Müşahidə Şurası və İdarə Heyəti iclaslarında müzakirə olunması və ESİ prinsiplərinin sığorta şirkətinin fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmə yaxud əməkdaşların müəyyən edilməsi üzrə məlumatlar toplanmışdır. Son 3 il ərzində investisiya şirkətlərində Müşahidə Şurası və İdarə Heyəti iclaslarında iqlim dəyişmələri və ESİ risklərinin təsiri üzrə sığorta şirkətlərinin 23%-də müzakirələr aparılmamışdır. İki sığorta şirkətində ESİ prinsiplərinin sığorta şirkətinin fəaliyyətində nəzərə alınması ilə bağlı məsul struktur bölmə/ əməkdaş olduğu bildirilmişdir.

## 6. Nəticə

Ümumilikdə, maliyyə institutları tərəfindən ESİ amillərinin əhəmiyyəti nisbətən başa düşülür və pərakəndə şəkildə ekoloji və sosial layihələr icra edilməkdədir. Sorğu üzrə başlıca nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin orta və uzunmüddətli dövrdə daha yüksək olacağını gözləyir;
- Maliyyə institutlarının yuxarı idarəetmə orqanlarının ESİ və dayanıqlı maliyyə üzrə strateji baxışı cari çağırışlarla uzlaşmır;
- Dayanıqlı maliyyə və ESİ prinsipləri maliyyə institutlarının cari biznes strategiyalarında nəzərə alınmasa da, bir sıra maliyyə institutu tərəfindən gələcəkdə nəzərə alınacağı bildirilmişdir;

- Dayanıqlı maliyyə və ESİ prinsipləri məhdud sayda maliyyə institutunun korporativ idarəetməsinə inteqrasiya edilmişdir;
- Maliyyə institutları ESİ və dayanıqlı maliyyə anlayışlarından məlumatlı olsalar da, bu risklərin idarə olunmasına kifayət qədər hazırlıqlı deyillər;
- Maliyyə institutları arasında bankların digər maliyyə institutları ilə müqayisədə ESİ prinsiplərindən daha çox xəbərdar olduğu, dayanıqlı maliyyə riskləri barədə daha məlumatlı olduğu görünür;
- Ekoloji və sosial layihələrin tətbiqində bankların daha aktiv olduğu görünür.

Sorğu təhlilinin nəticələri dayanıqlı maliyyə üzrə aşağıdakı istiqamətlərdə **mütəşəkkil yanaşmanı** zəruri edir:

- Məlumatlılığın və potensialın artırılması;
- Dayanıqlı maliyyənin tətbiqi ilə bağlı rəhbər sənədlərin və standartların bazara təqdim edilməsi;
- Tənzimləmə və nəzarət çərçivəsinin formalaşdırılması;
- Dayanıqlı maliyyə üzrə müvafiq anlayışların müəyyən edilməsi;
- ESİ prinsiplərinin maliyyə institutlarının fəaliyyətində nəzərə alınması çərçivəsinin müəyyən edilməsi;
- Dayanıqlı maliyyə üzrə müvafiq (kəmiyyət və keyfiyyət) indikatorlarının müəyyən edilərək hesabatlılığın formalaşdırılması və periodik əsaslarla açıqlanması.

Sorğu nəticələri Yol xəritəsi üzrə müəyyən edilmiş tədbirlərin icrası zamanı nəzərə alınacaqdır.